

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 dekabr 2022-ci il №96 (2707) https://mod.gov.az Qiyməti 30 qəpik


# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər





*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 19 il ötür.*

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın Dövlət Himni səsləndirilib.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

* * *

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin dönməz xarakter alması, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı bu dövrün əsas mahiyyətini təşkil edir. Ümummilli Liderin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb. Məhz bu dahi şəxsiyyət ölkəmizdə qüdrətli ordu yaratdı, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Bu gün Azərbaycan Ümummilli Liderin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu Öndərin layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə inanır və onu dəstəkləyir. Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, bu gün isə Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm bərpa və quruculuq işləridir. Bu və digər nailiyyətlərin əsasında Heydər Əliyevin uzaqgörən siyasəti, praqmatik strategiyası, milli dövlətçilik konsepsiyası dayanır.

Xalqımız da öz növbəsində Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı öz xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə əbədi ehtiramdan xəbər verir. Azərbaycan xalqı Heydər Əliyev ideologiyasına da, ideallarına da sadiqdir. Bunun davam etdirilməsi sosial çağırışdır. Məhz bu çağırışa cavab olaraq Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilib və bununla bağlı Tədbirlər Planı təsdiqlənib.

Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın yollarını işıqlandırmaqdadır. Ulu Öndərin yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcəkdir.

## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr, həmçinin bu il 31 oktyabr tarixli razılaşmalarının reallaşdırılmasının bəzi praktiki aspektləri, o cümlədən Cənubi Qafqazda iqtisadi və logistik əlaqələrin bərpası planları müzakirə edilib.

Dövlət başçıları gələcək təmaslar barədə də fikir mübadiləsi aparıblar.

## Müdafiə Nazirliyinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 09.12.2022-ci il tarixli Sərəncamı ilə Qurbanov Aqil Səlim oğlu müdafiə nazirinin müavini vəzifəsinə təyin olunub.

## Xalqımız Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla anır

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyyətə qovuşmasından 19 il ötür. Ölkə ictimaiyyətinin nümayəndələri hər il olduğu kimi, bu dəfə də Fəxri xiyabana axışaraq Ulu Öndərin məzarını ziyarət edir, xatirəsini dərin ehtiramla anırlar.

AZƏRTAC xəbər verir ki, müasir müstəqil Azərbaycan dövlətinin banisi, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin xatirəsini yad etməyə gələnlər sırasında cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlar - Vətən müharibəsi qaziləri, hərbçilər, müxtəlif təşkilatların nümayəndələri, elm və mədəniyyət xadimləri, müharibə və əmək veteranları və başqaları var. Çoxsaylı ziyarətçilər Ümummilli Liderin məzarı üzərinə gül dəstələri düzür, işıqlı xatirəsi önündə baş əyirlər.

Ulu Öndərin ən böyük arzusu Qarabağın erməni işğalından azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması idi. Onun bu arzusu iki il əvvəl həqiqətə çevrildi. Otuz il işğal altında qalan torpaqlarımız Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə azad olundu. Hazırda Azərbaycanın dövlət bayrağı Vətən torpaqlarında, Qarabağın tacı Şuşada dalğalanır.

Müstəqil Azərbaycanın bütün uğurları, qazanılan hər bir zəfərimiz Ulu Öndər Heydər Əliyevin ideyalarının təntənəsidir. Heydər Əliyev yolu Azərbaycanı daim irəli aparır.

Xalqımız öz xilaskarını, bütün həyatını doğma Vətəninin tərəqqisinə həsr etmiş Ümummilli Liderin xidmətlərini unutmur və unutmayacaq. Fəxri xiyabanda müşahidə olunan mənzərə bunu bir daha nümayiş etdirir.

* * *

Ulu Öndər Heydər Əliyevin xatirəsi Azərbaycanın bölgələrində, xarici ölkələrdə yaşayan soydaşlarımız tərəfindən də yad edilir.

# Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib.

Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad edilib.

Daha sonra Müdafiə Nazirliyinin rəhbərliyi görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyub.



# Ankarada Ümummilli Liderin əziz xatirəsi ehtiramla yad edilib

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə əlaqədar qardaş Türkiyədə silsilə tədbirlər keçirilir.*




AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Ümummilli Liderimizin əziz xatirəsi Ankaradakı Heydər Əliyev Parkında ehtiramla yad edilib.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov və diplomatik nümayəndəliyimizin kollektivi, Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin və Azərbaycan Evinin rəhbəri, professor Aygün Attar, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Əhliman Əmiraslanov, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Yeni Azərbaycan Partiyasından Milli Məclisin deputatı Hikmət Babaoğlu, Ədalət və İnkişaf Partiyasının (Ak Parti) beynəlxalq əlaqələr departamentinin sədr müavini Mehmet Ceylan, hərbi qulluqçular, kursantlar, yerli ictimaiyyətin nümayəndələri və digər rəsmi şəxslər Heydər Əliyev Parkında Ümummilli Liderimizin əziz xatirəsinə böyük ehtiram göstəriblər.

Ulu Öndərin abidəsi önünə əklillər qoyulub, tər çiçəklər düzülüb.

Paytaxt Ankara başda olmaqla Türkiyənin bir çox şəhərlərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım gününə həsr olunan tədbirlər keçirilib.

# Hərbi attaşelərlə 2022-ci ilin yekununa dair toplantı keçirilib



Dekabrın 13-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində xarici dövlətlərin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri ilə 2022-ci ilin yekununa dair toplantı keçirilib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun salamlarını toplantı iştirakçılarına çatdıran Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov onlara cari il ərzində ölkəmizdə hərbi əməkdaşlıq çərçivəsində görülən işlər, eləcə də 2023-cü il üçün planlaşdırılan fəaliyyətlərlə bağlı məlumat verib.

Qonaqlar, həmçinin işğaldan azad olunan ərazilərdə görülən işlər barədə məlumatlandırılıb.

Sonda hərbi attaşeləri maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycan-NATO tərəfdaşlığı üzrə müzakirələr aparılıb

Dekabrın 13-də Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin rəhbəri Cəfər Hüseynzadə NATO Baş katibinin meydana gələn təhlükəsizlik təhdidləri üzrə köməkçisinin müavini Ceyms Appaturay ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər Azərbaycan-NATO tərəfdaşlığı, enerji və kibertəhlükəsizlik, hibrid təhdidlər, habelə mühüm enerji infrastrukturlarının mühafizəsi ətrafında müzakirələr aparıblar.

# NATO-nun Müdafiə təhsilinin genişlənməsi proqramı çərçivəsində işçi görüşləri keçirilir

NATO-nun Müdafiə təhsilinin genişlənməsi proqramı (DEEP) çərçivəsində Azərbaycan üzrə koordinatorlar və NATO-nun müxtəlif təhsil ekspertləri ilə Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetində işçi görüşü keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüş zamanı hərbi təhsil sisteminin və əməkdaşlığın inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb, bu sahədə qazanılan təcrübə üzrə müxtəlif brifinqlər təqdim olunub.



NATO ilə əməkdaşlıq çərçivəsində təşkil olunan görüşlərin hər iki tərəf üçün səmərəli olduğu bildirilib və növbəti il üçün fəaliyyət planının istiqamətləri müəyyənləşdirilib.

İşçi görüşləri dekabrın 16-dək davam edəcək.

# "Heydər Əliyev Azərbaycanı bütün dünyaya tanıdıb"

Heydər Əliyevin anım günündə bir daha demək istəyirəm: Azərbaycan xalqının bəxti gətirib. Ən böhranlı məqamda belə bir lider - XX əsrin ən parlaq siyasi liderlərindən biri tapıldı. O, ölkəni çox mürəkkəb vəziyyətdən çıxarmağa, onu elə relslər üzərinə qoymağa nail olub ki, ölkə bu yolla gedərək möhtəşəm uğurlar qazanıb. İndi Azərbaycan Qarabağı özünə qaytarıb, yaxın vaxtlarda bu regionu bərpa edəcək, yüz minlərlə insan doğma yurdlarına qayıdacaq. Əminəm ki, Qarabağ çiçəklənən diyar olacaq. Əlbəttə, bu məsələdə Ali Baş Komandan İlham Əliyevin və onun atası dahi Heydər Əliyevin çox böyük xidmətləri var.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov söyləyib.

S.Markov deyib: "Heydər Əliyev vətəndaş müharibəsini dayandıra bildi, Azərbaycanın dirçəlməsinə xidmət edən "Əsrin müqaviləsi"ni bağladı, ölkədə vətəndaş həmrəyliyini bərpa etdi, ənənəvi dəyərlərə, İslam ənənələrinə və dünyəvi dövlət təsisatlarına hörməti heyrətamiz şəkildə əlaqələndirməyi və Azərbaycanı bütün dünyaya tanıtmağı bacardı. Heydər Əliyevə xas olan siyasi dahiyanəlik heyranlıq doğurur".

# Ümummilli Liderin anım günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, dekabrın 12-də Azərbaycan Ordusunun bütün qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu və xüsusi təyinatlı təhsil müəssisələrində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü münasibətilə silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissələrdə ictimai-siyasi hazırlıq dərsləri, dəyirmi masalar, konfranslar keçirilib, muzeylərə ekskursiyalar təşkil olunub, həmçinin Ulu Öndər Heydər Əliyevin şərəfli həyat və fəaliyyətindən bəhs edən sənədli filmlər nümayiş etdirilib.

Şəxsi heyətin və ictimaiyyət nümayəndələrinin də iştirak etdiyi tədbirlərdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Tədbirlərdə çıxış edənlər Ulu Öndərimizin şərəfli ömür yolu və çoxşaxəli fəaliyyəti, Azərbaycanın iqtisadi, siyasi, hərbi, sosial, mədəni və digər sahələri üzrə gördüyü işlərdən danışıb və dünya miqyaslı dövlət xadiminin atdığı addımları minnətdarlıq hissi ilə xatırlayıblar. Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə zəngin dövlətçilik təcrübəsi və müdrikliyi sayəsində Azərbaycanın sabit inkişaf yoluna qədəm qoyması, ordu quruculuğunun qanuni əsaslarla həyata keçirilməsi bir daha diqqətə çatdırılıb. Bildirilib ki, onun uzaqgörən daxili və xarici siyasəti nəticəsində ölkəmizin nüfuzu artıb, hərtərəfli inkişafa nail olunub, müstəqilliyimizin əbədi və dönməz olması təmin edilib. Bu gün digər sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də Ulu Öndərin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Çıxışlardan sonra Həzi Aslanov adına Ordu İdeologiya və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeologiya və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivləri tərəfindən ədəbi-bədii kompozisiyalar təqdim edilib.

* * *

Dekabrın 12-si böyük tarixi şəxsiyyət Heydər Əliyevin anım günü idi. Belə ömürlər həmişə ehtiramla anılır. Anılır, xatırlanır, belə ömürlərin tarixi ünvanlarına ehtiram ekskursiyaları təşkil edilir.

Hərbi Polis İdarəsinin şəxsi heyəti anım günündə "Heydər Əliyev Mərkəzi"ndə ekskursiyada oldu. Bu ekskursiya böyük tarixi şəxsiyyətin ömür yoluna daha yaxından bələd olma, öyrənmə istəyinin təzahürü idi. Hərbi qulluqçular dahi şəxsiyyətin ömrünün ayrı-ayrı mərhələlərini tarixləşdirən, xalqla, dövlətçiliklə bilavasitə əlaqəli yaşanan anların, ayların, illərin mahiyyətini ətraflı gördülər, dərk etdilər.




"Heydər Əliyev Mərkəzi"ndə ekskursiyada olan hərbi qulluqçulara böyük tarixi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi dövrləri əks etdirən eksponatların mahiyyətində Azərbaycana sevgi, azərbaycançılığa ehtiram görüblər və bunlar onların hər birinin dünyaduyumunun daha da formalaşmasında, mənəvi-psixoloji hazırlığının yüksələcəyində olduqca gərəkli olacaq.

Hərbi qulluqçulara interaktiv formada çatdırılan məlumatları şəkillər, kitablar, sənədlər tamamladı - hər şəkil də tarixdir, hər kitab da, hər arxiv sənədi də. Mərkəzdə ayrı-ayrı mövzunu əhatə edən materiallar həm Azərbaycan, həm də ingilis dilində səsləndirildi. Bu, təkcə azərbaycanlı ziyarətçilərin deyil, xarici qonaqların da gəlişinin səmərəliliyini təmin etmək niyyətidir.

"Heydər Əliyev Mərkəzi"ndə diqqətə çatdırıldı ki, müasir Azərbaycanın dövlətçilik memarı olan Ulu Öndər Heydər Əliyevin həyat yolu hər bir azərbaycanlı üçün əsl örnəkdir. Vətəni, xalqı üçün misilsiz xidmətləri olan Ulu Öndərin irsi əbədiyyən yaşayacaq, yaşadılacaq.

Tədbirdə qeyd edildi ki, Ümummilli Lider Heydər Əliyev 2003-cü ilin oktyabrında xalqa müraciətində İlham Əliyev haqqında demişdi: "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu fikirlər Azərbaycanın gələcəyini müəyyənləşdirən aqil kəlamı, böyük tarixi şəxsiyyət tövsiyəsi oldu. Bu fikirlərin azərbaycançılıq qüdrəti 2020-ci ilin İkinci Qarabağ müharibəsində təsdiqləndi...

Ekskursiya hərbi qulluqçulara milli-mənəvi dəyərlərə bələdliyin genişlənməsində əhəmiyyətli oldu...

* * *

Böyük tarixi şəxsiyyətlər tarixin axarını xalqının, millətinin sabahlarına yönəldə bilir. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" - deyən Ulu Öndər Heydər Əliyev belə işıqlı bir ömür yaşadı. Bu ömür azərbaycançılıq üçün yaşanmış ömürdü - həmişə ehtiramla xatırlanacaq...

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə bir qrup hərbi qulluqçunun Gəncə şəhərində "Heydər Əliyev Mərkəzi"nin nəzdində fəaliyyət göstərən "Heydər Əliyev Muzeyi"nə ekskursiyası təşkil edilib. Mahiyyəti Ulu Öndərin siyasi irsinin öyrədilməsi, daha əhatəli səviyyədə aşılanması olan bu tədbirin Anım günündə keçirilməsi də bir gerçəkliyin təzahürü idi: xalq üçün, dövlətçilik üçün yaşanılan ömürlər heç zaman unudulmur.



Əsgərlər Ulu Öndərin heykəli önünə gül dəstələri qoyublar, xatirəsi ehtiramla yad edilib.

Muzeyin hər eksponatı Ulu Öndərin ömür yolunun bir tarixidir. Gənc əsgərlərə bu tarixlər haqqında əhatəli məlumatlar verildi. Bildirildi ki, böyük tarixi şəxsiyyət Heydər Əliyev müasir Azərbaycanın dövlətçilik memarıdır. 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyət boşluğu yarananda, bu boşluğun davamı kimi separatçılıq genişlənəndə xalq böyük tarixi şəxsiyyət Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi. Xalqın çağırışı ilə hakimiyyətə qayıdan Ulu Öndər Azərbaycan dövlətçiliyini xilas etdi. Gənc əsgərlər muzeydə tariximizin bu dönəmini əks etdirən eksponatlara maraqla baxdılar, onları tarix kimi dərk etdilər.

Ulu Öndərin Azərbaycan Respublikasının Prezidenti kimi ölkədə sabitliyin yaranmasını, iqtisadi inkişafı şərtləndirən genişmiqyaslı tədbirlərin həyata keçirilməsini, beynəlxalq layihələrin gerçəkləşməsini və s. təmin etdi. Bunlarla bir sırada Azərbaycanın dünya dövlətləri ilə münasibətində də qarşılıqlı etimada əsaslanan ikitərəfli, çoxtərəfli, siyasi, iqtisadi əlaqələr genişləndi...

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan Ordusu nizami ordu kimi formalaşdı. Böyük tarixi şəxsiyyətin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ordu quruculuğunu da dinamik səviyyədə inkişaf etdirdi. Bu ordu 2020-ci il noyabrın 8-də Zəfər qazandı, torpaqlarımızı işğaldan azad etdi...

Gənc əsgərlər Muzeydə hər eksponatla öyrənilməsi vacib olan tarix kimi tanış oldular. Bu, onların döyüş və mənəvi-psixoloji hazırlığının yüksək olmasında əhəmiyyətli rol oynayacaq.

Ekskursiyanın sonunda xatirə şəkilləri çəkdirildi...

**"Azərbaycan Ordusu"**

*Təlim*

# Zəfərlərə aparır sizi döyüş bayrağı!..



Duruşunda mərdanəlik olduğuna görə, görkəmi baxanın düşüncələrində dönməzlik yaratdığına görə, səssiz sözü ruhumuzun öyüdü olduğuna görə, mehmanların könül adamı bildiyinə görə, gələnlərinin dönüşünə kövrəldiyinə görə, ...dağlara ulu dağlar deyirik. İşğaldan azad edilmiş ərazilərdəki ulu dağların göz küsdürən, könül bulandıran dumanı çiyinlərindən sürüşüb, əsən yellər onu çox uzaqlara aparıb. Bu mərdanə dağların göylərində süzən qartalın qanadlarının dağın yaxasını kölgələndirməsi könül xoşluğuna dönür. Bu gözəl uçuşu sədaqətə and uçuşu bilirəm. Qartal dövrə vurur, bir də dövrə vurur, bir də dönmək niyyətiylə uzaqlaşır. Zəfərdən az sonra işğaldan azad edilmiş ərazilərimizdə də belə bir uçuş görmüşdüm. Onda qartalın ecazkar uçuşuna gözaydınlığı uçuşu demişdim. Bu gün gördüyüm uçuş onda gördüyüm uçuşun davamıdı. Dediklərim təlimə başlayacaq əsgərlərin ruhunun ovqat ortağına dönür. Baş leytenant Möhsüməli Cəfərov deyir ki, əsgərlərimiz müşahidə etdiyiniz qətiyyətli uçuşun mahiyyətini hərbi xidmətdə yaşadırlar.

Qartal uçuşu təliməqədərki vaxtda söhbətimizin mahiyyətinə dönür...

İkinci Qarabağ müharibəsindən əvvəl "Mübariz postu"nda əsgərlərlə söhbətləşəndə də bir qədər aralıda uçan qartal



görmüşdüm. Demişdilər ki, üç-dörd gün əvvələ kimi bu həndəvərlərdə qartal görünməyib. İndi gündə bir dəfə, hərdən iki dəfə göydə uçur, başımız üstündə dövrə vurub uzaqlaşır. Onda bu uçuşlara yozum verə bilməmişdik. Qartal uzaqlaşandan sonra səssizliyi bir sorğuyla çilikləmişdim: Azərbaycanın Milli Qəhrəmanları Mübariz İbrahimovun, Çingiz Qurbanovun adını daşıyan postlar var. Belə postlar yenə olacaqmı? Əsgərlər qətiyyətlə, inamla demişdilər ki, Ali Baş Komandanın əmri ilə döyüşlər olacaq. Vətənə, Hərbi anda sədaqətlə döyüşəcəyik. Onda hansımızınsa döyüşünə görəsə belə adlanma olacaq.

Əsgərlərimiz İkinci Qarabağ müharibəsini bu ruhla gözləyirdi.

Ermənistanın işğalçılıq müharibəsində torpaqlarımızın 20 faizi işğal edilmişdi. Xalq ordumuzun bu işğalı sonlandıracağına əmin idi. Bu əminliyə görə də Ali Baş Komandanın döyüş əmrini gözləyirdi, Ermənistan sülh danışıqlarından yayındığına görə, regionda mövcud status-kvonu saxlamaq istədiyinə görə müharibə istəyirdi.

Polkovnik-leytenant Faiq Şirinov fikirlərimin davamı kimi deyir ki, ordu da, xalq da döyüş əmri gözləyirdi. Bu əmr 2020-ci il sentyabrın 27-də verildi. Azərbaycan Ordusunun hissələri Ermənistan silahlı qüvvələrinin hücumunun qarşısını qətiyyətlə aldıqdan sonra Azərbaycan Respublikasının Prezidenti əks-hücum əmri verdi. Bu, İkinci Qarabağ müharibəsi idi.

Bir azdan "Müşahidə olunmayan hərəkətsiz hədəflərə sınaq atışları" mövzusunda təlim keçiriləcək. Təliməqədərki "nəfəsdərmədə" Zəfərin döyüşlərindən danışırıq:

- Hadrut istiqamətində artilleriya hazırlığı aparılmışdı. Düşmən ciddi müqavimət göstərirdi. Artilleriya hazırlığını piyadalarımız döyüşlə davam etdirirdi. Şuşa istiqamətində son dayaqlarından biri olan Hadrutun itirilməsinin Şuşanın işğaldan azad edilməsinə şərait yaradacağını düşmən də bilirdi. Ona görə də bütün ciddiyyətiylə müqavimət göstərməyə çalışırdı. Gərgin döyüşlər gedirdi. Belə döyüşlər neçə gün çəkdi. Qəsəbəyə yaxınlaşmışdıq. Dağlıq massivdən qəsəbəyə endik. Hava hələ tam işıqlaşmamışdı. Müxtəlif istiqamətlərdən qəsəbənin üstünü aldıq. Əl-qol aça bilməyən düşmən döyüşlərin belə nəticələnəciyini gözləmirmiş, sonda erməni hərbçilər də qaçdı, mülkilər də (çavuş Rüstəm Rüstəmov).

- Döyüşçülərimiz Tağlar, sonra Qarğabazarı uğrunda döyüşürdülər. Biz düşmənin mövqelərini artilleriya atəşinə tutmuşduq. O anlarda döyüşlərdən xeyli əvvəl komandirimizin dediklərini xatırlamışdıq: "Döyüşdə dəqiq olmayan atəş düşmənə üstünlük yaradır, yəni, artilleriyanın dəqiq olmayan atəşi döyüşün gedişinə ikiqat zərərdir: özün üstünlük qazana bilmirsən, düşmənə üstünlük qazandırırsan. Dəqiq atışlarımız düşmənin mövqelərini dağıdırdı, döyüş texnikalarını, canlı qüvvəsini məhv edirdi. On gündən sonra düşmənin mövqelərini həmin yerlərdən vururduq. Əvvəlki döyüşlərimizin nəticələrini onda görürdük: düşmənin dağıdılmış mövqeləri, sıradan çıxarılmış döyüş texnikaları, məhv edilmiş düşmən əsgərləri, zabitləri, muzdluları. Sonuncu döyüşümüz Topxanada oldu. Zəfəri də Topxanada eşitdik..." (çavuş Əmrah Abbaszadə).

Zəfər ərəfəsində bu təəssüratlar İkinci Qarabağ müharibəsinin tarixi kimi dinlənilir. Həm də təlimdən əvvəl. Bu rəmzdi bəlkə? Qürur var deyilənlərdə - öyrənilənlər xatırlananların davamı olacaq...

Təlim başlayır. Tədris formatlı təlimdi. Baş leytenant Mövsüməli Cəfərov top heyətinə mövzu haqqında nəzəri bilgi verir. Onu da qeyd edir ki, İkinci Qarabağ müharibəsində artilleriyaçılar ən çox belə hədəfləri məhv etdilər. Bu informasiya zaman anlamında dünənlə (sentyabr-noyabr, 2020 döyüşlər), bu gün (oktyabr, 2022 təlim) arasında mənəvi əlaqə yaradır. Bu da tarixin dünənlərinə sevgini yaşatma istəyidir və zabitlərin bu istəyi tarixə sədaqətdir, şübhəsiz.

Baş leytenant sonra deyir ki, düşmənin neçə on kilometrlərlə uzaqda olan mövqeləri, qruplaşmaları bu üsulla məhv edilirdi. Batareyamız Tağlardaydı. Komandanlıq bizə Tağlarda düşmənin bir mövqeyinin koordinatlarını vermişdi. Əsgərlər topu vaxtında atışa hazırladılar. Atəş əmri verdim. Mərmilər hədəfi darmadağın edibmiş. Bu atışdan sonra piyadalarımızın hücumu mövqe qələbəsi ilə tamamlandı. Siz də topu onlar kimi öyrənin. Zabit söhbətini maraqlı və düşündürücü bir fikirlə tamamlayır: Fiziki qanunlar əsasında tənzimlənən bu atışlar döyüş öncəsi döyüşdür. Yəni, artilleriyaçılar sonrakı döyüşlərin gedişinə əvvəlcədən belə müdaxilə edə bilirlər...

Top komandiri çavuş Rəhman Abbaszadə əvvəllər öyrənilmişləri, heyət olaraq nə edəcəklərini yada salır. Heyət üzvlərindən nə etməli olduğunu soruşur...

Sonra praktiki atış əmri verilir. Heyət nəfərləri bütün təmrinləri ardıcıllıqla, mükəmməl və normativlərdə nəzərdə tutulan müddətdə yerinə yetirirlər. Batareya komandiri tapşırığın icrasından razı qalır. Tapşırığın daha mükəmməl yerinə yetirilməsinin mənimsədilməsi üçün top komandirinə göstəriş verir...

Bu, əsl pedaqoji prosesdir...

Baş tuşlayıcı əsgər Coşqun Mirismayılov atışlarda tuşlayıcının vəzifə borclarını mükəmməl izah edir və əlavə olaraq onu da qeyd edir ki, biz təkcə öz vəzifə borclarımızı deyil, digər heyət nəfərlərinin də vəzifə borclarını öyrənirik. Heyət nəfəri Rəşad Alməmmədov əsgər yoldaşının dediklərini "Top heyətimizin üzvləri bir-birindən öyrənir" fikri ilə tamamlayır. Əsgər Tural Piriyev əsgər yoldaşlarının dediklərinə qüvvət olaraq bildirir ki, asudə vaxtlarda soruşula-soruşula öyrənilənləri təlimlərdən əvvəl top üzərində göstəririk, yəni, öyrəndiyimizi görüntülərlə yaddaşımıza hopdururuq.

Baş leytenant Mövsüməli Cəfərov əsgərin fikirlərini bəyənir, onun da, digər əsgərlərin də bu istəyini hərbi xidmətə, deməli, Vətənə sevgi adlandırır, deyir ki, əsgərin bir neçə hərbi ixtisası bilməsi İkinci Qarabağ müharibəsində istər həmin mövqe döyüşündə, istərsə də sonrakı döyüşlərdə qələbələr qazanılmasında əhəmiyyətli olurdu.

Polkovnik-leytenant Xaliq İmanov əsgərin də, zabitin də dediklərini hərbi xidmətə maraq, maraq biçimli sevgi adlandırır və qeyd edir ki, belə sevgilər əsgərin mənəvi-psixoloji hazırlığının təzahürüdür.

Əsgərlər razılıqla bir-birinə,



sonra uzaqlara baxırlar. Belə öyrənmənin kimin təşəbbüsü olduğunu ayırd etmək mümkün deyil. Kimdirsə, tərxis edilib, indi özü buradan uzaqlarda olsa da, ruhu buralardadı - əsgərlər yoldaşlarının, xidmətə sonra gələn əsgərlərin yanında...

Baş leytenant əsgərlərə xitabən qürurla deyir ki, təlimlər döyüş hazılığını yüksəldir. Yüksək döyüş hazırlığı ordunun qüdrətidir. Bu qüdrət İkinci Qarabağ müharibəsində qadirliyini təsdiqlədi, Zəfərlə tamamlandı. Ermənistan silahlı birləşmələri Zəfərdən sonra, 2022-ci ilin avqustunda, sonra sentyabrında hücumlar etməyə cəhd etdi. Ordu hissələrimiz bu hücumların qarşısını qətiyyətlə aldı, döyüşlərdə mühüm qələbələr qazandı. Sizin döyüş hazırlığınız düşmənin istənilən təxribatlarının qarşısını da alacaq, ərazi bütövlüyümüzü də qoruyacaq.

Əsgər Rəşad Alməmmədov vurğulayır ki, təlimlərdə öyrəndiklərimizin döyüş hazırlığımızı yüksəltdiyini biz də bilirik, buna görə də həm maraqla, həm də məsuliyyətlə öyrənirik.

Əsgər Mirzə Kərimzadə deyir ki, döyüşdə düşmənin bütün mövqeləri, qruplaşmaları, dayaq məntəqələri artilleriya üçün, əsasən, müşahidə edilməyən hərəkətsiz hədəflərdir. Ona görə bu mövzunu mükəmməl mənimsəyirik. Komandirimizin öyrətdiklərini atışlarda mükəmməl, təlimata uyğun tətbiq etməyə çalışırıq. Əsgər Nahid Qədimov əsgər yoldaşının fikirlərini "Öyrəndiklərimizin hamısını güclü ordunun güclü əsgəri olmaq istəyi ilə öyrənirik", - fikri ilə tamamlayır. "Müşahidə olunmayan hərəkətsiz hədəflərə sınaq atışları" mövzusunda təlim təsdiqləyir ki, Azərbaycan əsgəri hərbi ixtisasını təkcə vəzifə borcu kimi deyil, həm də hərb sənətinə maraq, sevgi kimi öyrənir...

Polkovnik-leytenant Faiq Şirinov İkinci Qarabağ müharibəsini Azərbaycanın hərb tarixində ən qürurlu dövr adlandırır. Əli təlim keçən əsgərlərin timsalında orduya sevgi kimi əsgərlərdən birinin çiyninə enir:

- 2022-ci ilin avqust və sentyabr döyüşlərinin iştirakçıları İkinci Qarabağ müharibəsinin iştirakçılarının davamçıları oldu. Siz həm onların, həm də Vətən müharibəsində iştirak etmiş əsgər yoldaşlarınızın qətiyyətli, dövlətə, dövlətçiliyə sədaqətli davamçıları olacaqsınız. 2022-ci ilin sentyabrında döyüşənlər Zəfərə layiq yeni qələbələr qazandılar. Təlimlərdə öyrəndikləriniz sizin gücünüzdür. Siz də imkan verməyəcəksiniz, sizdən sonra xidmət edəcək əsgərlər də imkan verməyəcəklər ki, sərhədlərimizin yaxınlıqlarına yad nəfəsi dəysin. Bu, Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqət olacaq...

Göy üzündə qanad çalan qartallar görünür. Görəsən bayaqkı qartallardımı?..

- Qartalların bugünkü uçuşu göylərin sizə salamıdı..., - deyirəm. Əsgərlər könül xoşluğu ilə göy üzünə baxırlar. Bu baxışlarda məğrurluğun eynini görürəm, əsgərlərə xitabən deyirəm ki, siz düşmənin müşahidə olunmayan hərəkətsiz hədəflərini də vurmağa qadirsiniz, müşahidə olunan hədəfləri də. Bu, sizin qadirliyinizdir!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Tarix yazan oğullar*

# Şuşa ucalığının şəhadət mərtəbəsi

Müasir dünyada dövlətin və ordunun fəaliyyətini hərbi kəşfiyyatın mövcudluğundan kənar təsəvvür etmək çətindir. Vətənin müdafiəsinin və mövcud təhlükə qarşısında döyüşün hücum və müdafiə olaraq müvəffəqiyyətlə planlaşdırılması üçün dövlətin strateji məlumatlar əldə edə biləcək kəşfiyyat orqanına və kəşfiyyatçılara daim ehtiyacı olduğu şübhəsizdir. Bu peşənin sahibləri haqqında düşündükdə hər kəsin ağlında sərt görünüşlü, əli silahlı, iri cüssəli əsgər obraz canlanır. Lakin onlar bəzən əli qələm tutan, bəzən mahnılar oxuyan, şeir yazmağı bacaran həssas qəlbli insanlardır. Şəhid kəşfiyyatçının qeyd dəftərçəsində yazılma yeri, tarixi məlum olmayan şeiri oxuduqca düşüncələrə dalıram. Bəlkə səngərdə, bəlkə yuxusuz gecələrdə, bəlkə də Qarabağ həsrəti çəkdiyi hansısa bir gündə yazıb.

Mən bu yurdun,
odlar yurdu Azərbaycanda
Şərəflidir adım-sanım
bax bu diyarda,
Sənin üçün doğma Vətən
qurbandır, canda
Həssas qəlbli, açıq gözlü
Kəşfiyyatçıyam.

Şeirdə hecalar uyğunluğu hiss olunmasa da, vətənpərvərlik, ruh yüksəkliyi, peşəyə məhəbbət aydın hiss olunur. Bu şeirin hikmət yükü, məna çalarları yaşam fəlsəfəsidi. Şəhidin könül dəftərindən qopan kəlmələr Azərbaycan əsgərinin Vətən sevgisinin vəsfidir. Bu sevgi dünənki və bugünkü tariximizin pozulmayan möhürüdür.

Bu dəfə haqqında danışacağımız zabit Vətən Müharibəsi Qəhrəmanı Xüsusi Təyinatlı Qüvvələrin şəhid polkovnik-leytenantı Ramiz Sübhan oğlu Cəfərovdur. O, 1974-cü il dekabrın 10-da dünyaya göz açıb. Uşaqlığını Masallı rayonunda keçirib. Sonradan valideynləri ilə birlikdə Sumqayıt şəhərinə köçüb. Hələ uşaq yaşlarında vətənpərvərliyi ilə seçilib. Vətənə sevgi, düşmənə nifrət ruhunda böyüyən Ramiz Vətənə, xalqa, dövlətə layiqli övlad olmaq üçün Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Kursant yoldaşları arasında bilik və bacarığı ilə seçilib. Ali hərbi təhsilini Rusiya Federasiyasında V.F.Marqelov adına "Suvorov" ordenli Ryazan Qvardiya Ali Hərbi Hava Desant Komandanlığı Məktəbində alıb. Təhsil müddətində alman, ingilis və rus dillərinə mükəmməl yiyələnib.



Şəhidimizin ömür kitabının səhifələrini vərəqləmək məqsədilə mənzilə yola düşürəm. Kövrək hisslərin ağuşunda ünvana çatıram. Bir anlıq ayaq saxlayıb, nəfəsimi dərirəm. Söhbətə haradan başlayacağım haqqında düşünürəm. Birazdan şəhidin həyat yoldaşı Sitarə xanımla görüşəcəm. Kədərli və məğrur baxışlı gözlərin, dərdini ürəyində gizlədib mətanətini qorumağa çalışan ananın qonağı olacam. Acılı-şirinli xatirələri dinləmək, eşitmək olduqca çətindir... Lakin yaşamaq daha çətin, daha iztirablıdır...

Bir vaxtlar yaşadığı məhəllədə ruhuna ehtiram məqsədilə küçənin hər bir yerinin şəkillər, xatirə tabloları ilə bəzədilməsi şəhidə və şəhidliyə verilən dəyərin təzahürüdür.

Məni qəhrəmanımızın həyat yoldaşı qarşıladı. Gözlərinin dərinliyində gizlətməyə çalışdığı qəm yükünü, həyat yoldaşının yoxluğunun xiffətini çəkdirən ağrını, iztirabı ilk andaca hiss etdim.

Sitarə xanım söhbətə "mən ömrünü, səadətini, gələcək arzularını, Vətən uğrunda fəda edən Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Cəfərov Ramiz Sübhan oğlunun həyat yoldaşıyam", - deyərək başladı... "Ramiz Vətəni müdafiə etməyi, torpaqlarımızı azad görməyi canından üstün tutdu. Bütün şəhidlərimiz kimi o da Qarabağı azad görmək arzusundaydı. Arzusuna çatdı. Əminəm ki, gözünü əbədiyyətə yumanda ağlında və gözlərində qalan ən xoş təəssürat Şuşanın azadlığı oldu", - dedi şəhid xanımı.

Sitarə xanım kədərli, lakin qürur dolu hisslərlə fikirlərinə davam etdi. "Hərbçinin həyat yoldaşı olmaq həm şərəfli, həm də məsuliyyətlidir. Demək olar ki, Ramizin təyinat aldığı bütün bölgələrə onunla bərabər getmişəm. O harada olsa, biz də orada olardıq. Ramiz peşəsini qəlbən sevərək seçmişdi. Xidmətlə bağlı nəsə soruşanda, "sən uşaqlarla məşğul ol, qalan işlər yaxşı olacaq", - deyərdi".

Gələcəklə bağlı hansı planlarının olduğunu soruşanda Sitarə xanım xəyala dalır, üzünə təbəssüm qonur. O anları yenidən yaşayır.

"Ordu sıralarından ehtiyata buraxıldıqdan sonra həyat evində yaşamağı xəyal edirdik. Ev heyvanlarına, təbiətə xüsusi sevgisi vardı. Təbiətin qoynunda olmaq, boş vaxtlarında balıq tutmaq hobbisi idi. Tez-tez doğmaları və dost-tanışlarıyla balıq ovuna gedərdi. Əyləncəli və pozitiv biri idi. Bəlkə də elə bu xüsusiyyətlərinə görə hamı tərəfindən sevilirdi".

Sitarə xanım dedi ki, atasının şəhadətindən sonra Nurlan hərbçi olmaq qərarına gəlib və sənədlərini Dövlət Sərhəd Xidməti hərbi məktəbinə verib. "Ramizin yoxluğu ilə barışmaq istəməyən Nurlan hazırda kursantdır. Atasının yolunu davam etdirmək, şəhidlərimizin bizlərə əmanət qoyduğu torpaqlarımızın keşiyində durmaq niyyətindədir. Mən də ana olaraq oğlumun qərarına hörmətlə yanaşdım. Çünki övladlarımı atalarının adına, Vətənimizə layiqli bir vətəndaş kimi böyütmək arzusundayam. Bu təkcə mənim arzum deyil. Bu ömür-gün yoldaşımın da arzusu idi. Ömrümün sonunadək Ramizin xəyallarını, arzularını həyata keçirmək üçün yorulmadan çalışacağam".

"Həyat yoldaşınızın döyüş yolu barədə nə deyə bilərsiniz?" sualına cavab olaraq Sitarə xanım bildirdi ki, bu haqda xidmət yoldaşlarından soruşmağınız daha yaxşı olar. Kövrək notlarla vidalaşıb şəhidimizin keçdiyi şərəfli döyüş yolu haqqında öyrənmək məqsədilə xidmət yoldaşı, Xüsusi Təyinatlı Qüvvələrin zabiti Nizami Əliyevlə əlaqə yaradıb görüşdük və Ramiz Cəfərovla bağlı xatirələrini bizimlə bölüşməsini xahiş etdik. Polkovnik-leytenant Nizami Əliyev dedi ki, Ramiz savadlı zabit olmaqla yanaşı, peşəsinin nəzəri və praktiki cəhətdən peşəkarı idi. Onunla hər kəs qürur duyurdu. Dəfələrlə düşmən təxribatının qarşısının alınması istiqamətində həyata keçirilən uğurlu əməliyyatların iştirakçısı olub. O, zabit olaraq döyüşlərdə fəal iştirak edib. Xeyli sayda düşmən texnikasını və canlı qüvvəsini məhv edib. Döyüşçü və komandir kimi malik olduğu müsbət xüsusiyyətlərinə, çevikliyinə və tükənməyən enerjisinə görə dostları ona "Qartal" ləqəbi vermişdilər. Döyüşdə də daima qartal kimi irəlidə oldu".

Xidməti dövründə müxtəlif vəzifələrdə xidmət edən zabitin bir amalı vardı: düşmən işğalı altında olan ərazilərimizi azad etmək. Elə bu amalla da o, 27 sentyabr 2020-ci ildə ərazi bütövlüyümüzün bərpa olunması naminə döyüşlərə atılır. Şanlı Zəfərimizlə başa çatan "Dəmir yumruq" əks-hücum əməliyyatı zamanı Cəbrayıl və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edir. "Qartal" ləqəbli kəşfiyyatçı noyabrın 6-da Şuşa istiqamətində gedən döyüşlərdə şəhadət mərtəbəsinə ucalır. Döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına və eyni zamanda, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

Şəhid polkovnik-leytenant Ramiz Sübhan oğlu Cəfərovun xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə onun böyüyüb boya-başa çatdığı Masallı rayonu 6 saylı tam orta məktəbə onun adı verilib. Ailə üzvləri onlara dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə, Sumqayıt şəhər və Masallı rayon İcra Hakimiyyətlərinə minnətdarlıqlarını bildirdilər.

**Nərgiz HÜSEYNOVA**
**Bakı şəhəri**

# Şəhid Orxan Əkbərovun anım tədbiri keçirildi




Ərəstun Mahmudov adına 220 nömrəli məktəb-liseydə Vətən Müharibəsi Qəhrəmanı şəhid polkovnik-leytenant Orxan Əkbərovun anadan olmasının 40-cı ildönümü ilə bağlı "Şəhid anılar, Vətən tanınar" adlı hərbi vətənpərvərlik tədbiri keçirildi.

Tədbirdə məktəb-liseyin müəllimləri, şəhidin ailə üzvləri, şagirdlər və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Məktəb-liseyin 4 "d" sinif şagirdləri şeirlər və vətənpərvərlik mahnıları səsləndirdilər. Şəhid polkovnik-leytenant Orxan Əkbərova həsr edilən videoçarx izləndikdən sonra ailəvi üzvləri onun haqqında xatirələrini bölüşdülər. Bildirildi ki, Orxan Əkbərov 1982-ci il dekabrın 12-də Saatlı şəhərində anadan olub. 2020-ci il sentyabrın 27-də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq oktyabrın 2-də şəhidlik zirvəsinə ucalıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına və "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medallarına layiq görülüb.

Şəhidin oğlu Çingiz Əkbərov çıxış edərək atası ilə bağlı son xatirəsini bölüşdü: "Atam axırıncı gəlişində bizə hədiyyələr almışdı. Söhbət etdiyimiz vaxt ona zəng gəldi, tez hazırlaşıb evdən çıxdı. Hara getdiyini soruşduqda dedi ki, gələcəm. Amma bu dəfə gəlmədi. Gəlməsə belə bilirəm ki, o ən ali zirvəyə yüksəlib və oradan hər zaman bizi izləyəcək..." - deyə o bildirdi.

Qızı Sevil Əkbərova da atasıyla son danışığından söz açaraq dedi: "Atam hər zaman zənglərimə cavab verib mənlə maraqlanardı. Ancaq müharibədə olduğu vaxt ondan cavab ala bilmədim. Bir dəfə özü zəng etdi. Tezliklə qələbə müjdəli xəbərlər eşidəcəyimizi söylədi. Atam Böyük Qələbənin canlı şahidi olmasa da, mən hər dəfə məzarını ziyarət etmək üçün gedəndə ona deyirəm: "Ata Qarabağ azaddır". Bu gün atam şəhiddir. Söz vermişəm ki, ağlayıb düşmənləri sevindirməyəcəm. Atamla hər zaman fəxr edirəm, edəcəm də".



Sonda yazıçı Elçin Məmmədli şəhid Orxan Əkbərovun həyat və döyüş yolundan bəhs edən "Əfsanəvi kəşfiyyatçı" adlı kitabını tədbir iştirakçılarına təqdim etdi. "Kitabı könül xoşluğu ilə qələmə almışam. İndi Vətən müharibəsinin kəşfiyyatçı qəhrəmanından kitab yazdığım üçün qürurluyam. İnanıram ki, məktəblilər bu igidlərdən bəhs edən kitabları oxuduqca onlara vətənpərvərlik hissləri daha da aşılanacaqdır".

Tədbirdə çıxış edən məktəb-liseyin direktoru Lətifə Əzimova sinif rəhbəri və tədbirin təşkilatçısı Gülnarə Quliyeva şəhid polkovnik-leytenantın xidmət illəri, 44 günlük Vətən müharibəsindəki döyüş yolu, onun Vətənə məhəbbəti və onun hərbi anda sədaqəti barədə geniş söhbət açıblar. Orxan Əkbərovun əmisi Yusif Əkbərov ailə üzvləri adından məktəb kollektivinə və tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin "Kommunikasiya Strategiyası" ordu-media münasibətlərinin təkmilləşdirilməsinə əhəmiyyətli töhfədir

Müdafiə nazirinin müvafiq qərarı ilə qüvvəyə minmiş Nazirliyin "Kommunikasiya Strategiyası" ordu-media-cəmiyyət münasibətlərinin inkişafında növbəti müsbət addımdır. Müdafiə Nazirliyinin KİV-lə, həmçinin ictimaiyyətlə apardığı işin, həyata keçirilən birgə layihələrin daha da səmərəli icrasına yönəlmiş "Kommunikasiya Strategiyası" Nazirliyin strukturuna daxil olan qurumların fəaliyyətinin daha sıx, əlaqəli şəkildə təşkilinə əhəmiyyətli töhfə verir. Fikrimcə, bu sənəd Nazirliyin ictimaiyyətlə, eləcə də media ilə fəaliyyətlərinin ideoloji əsaslarını, istiqamətlərini, icra mexanizmlərini, görülən işlərin təhlilini, həmçinin gələcək planların, qarşıda duran vəzifələrin dəqiqləşdirilməsini özündə tam ehtiva edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində böyük nailiyyətlər əldə edildi. Məhz bu uğurlar, aparılan düzgün islahatlar, atılan qətiyyətli addımlar Azərbaycan Ordusunu daha da gücləndirdi və tarixi qələbəyə istiqamətləndirdi. Ordumuz böyük əzmlə döyüşə atılaraq Şanlı Zəfər qazandı. Torpaqlarımızın işğaldan azad edilməsi ilə ərazi bütövlüyümüz bərpa edildi və tarixi ədalət bərqərar oldu. Ordu quruculuğu istiqamətində görülən tədbirlər bu gün də yüksələn templə davam edir. Vətən müharibəsinin təcrübəsi dərindən təhlil edilərək bir çox yeniliklər tətbiq edilməklə müasir silah-sursat, hərbi avadanlıqlar, avtomatik idarəetmə sistemləri və dünyada mövcud olan ən yeni texniki vasitələr ordumuzun arsenalına daxil edilir. Keçirilən təlimlərdə isə onların praktiki istifadəsi təmin olunur.

Ordu xalqın və cəmiyyətin ayrılmaz tərkib hissəsi olduğu üçün bölgədə, qlobal dünyada baş verən proseslər ona da öz təsirini göstərir. Həyatımıza sürətlə daxil olan rəqəmsal innovasiyalar, texnoloji yeniliklər idarəetmədə yeni üsulların tətbiq edilməsini şərtləndirir və daha operativ reaksiyalar verməyə, cəld hərəkət etməyə sövq edir. Məlumat və xəbərlərin dərhal paylaşılmasına köklənmiş rəqəmsal dünyanın tətbiqləri ölkədə və idarəetmə orqanlarında effektiv kommunikasiya siyasətinin aparılmasını diktə edir. Müdafiə Nazirliyi yeniliklərlə ayaqlaşır və fəaliyyətini qeyd olunanları nəzərə almaqla qurur. Orduda keçirilən təlim və müxtəlif mövzulu tədbirlərə maraq səngimir. Çoxsaylı oxucu kütləsinin, media-resurslarının, eləcə də ölkə və dünya ictimaiyyətinin hərbi xəbərlərə böyük maraq göstərməsi, sosial şəbəkələrdə, elektron KİV-də məlumatın ani sürətdə dərc edilməsi media ilə əlaqələrin daha da çevik həyata keçirilməsini şərtləndirir. Bu, artıq zamanın tələbidir. Müzakirələrə, gərgin diskussiyalara səbəb olan "Kommunikasiya siyasətində medianın əhəmiyyəti" mövzusu da yuxarıda sadalanan yeniliklərin tətbiqi ilə qarşılıqlı əlaqələrin daha düzgün, səmərəli qurulmasına öz töhfəsini verir.

Kompüter texnologiyalarının inkişafı, eləcə də hadisələrlə bağlı informasiyaların ötürülməsi, paylaşılması imkanlarının genişliyi bəlli üstünlüklərlə yanaşı, müəyyən əngəllər də törədir. Bu da informasiyanın sızdırılması ilə bağlıdır. Müasir həyat ritmindən irəli gələn bu məsələ dövlət qurumlarından və digər müəssisələrdən rəsmi açıqlamaların daha operativ şəkildə ictimailəşdirilməsini və yürütdüyü Kommunikasiya siyasətinin çevik olmasını tələb edir.

Xüsusilə qeyd etmək istərdim ki, bu operativlik, informasiya təhlükəsizliyinin pozulmasına, hərbi və dövlət sirlərinin yayılmasına səbəb olmamalı, neqativ hallara şərait yaratmamalı, dövlətimizin maraqlarını qorumalıdır. Bu işlər həyata keçirilərkən əsas diqqət qanunlara riayət edilməsinə, hərbi və xidməti məlumatların yayılmasının qarşısının alınmasına yönəldilməlidir. Yəni, ictimai rəy formalaşdıracaq məlumatların ictimaiyyətə açıqlanması operativ olmaqla yanaşı, fakt və rəqəmlərin dürüstlüyü, statistik məlumatların dəqiqliyi də öz rəsmi təsdiqini tapmalıdır. Eyni zamanda, hadisə və faktla bağlı adları çəkilən insanların da maraq və hüquqları mütləq mənada nəzərə alınmalıdır. Qeyd etməliyik ki, son bir neçə il ərzində Müdafiə Nazirliyində qeyd edilən məsələ ilə bağlı böyük işlər görülüb. Media nümayəndələri və ictimaiyyətlə əlaqələr, həmçinin birgə layihələrin icrası xeyli intensivləşib.

Kommunikasiya siyasətindən danışmazdan əvvəl bir məsələyə toxunmaq istərdim. Texnoloji yeniliklərin həyatımızın tərkib hissəsi olan bir dövrdə ən əsas məsələ informasiya təhlükəsizliyinin təmin edilməsidir. Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən, sosial şəbəkələrdən, ünsiyyət tətbiqlərindən və digər internet media platformalarından istifadə edilməsi zamanı informasiya təhlükəsizliyinə riayət olunması ilə bağlı internet resursları üzrə monitorinqlər və təhlillər aparılıb. Nəticədə məlum olub ki, son zamanlar Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən hərbi geyim formasında, eləcə də xidmət sahələrinə aid inzibati bina, qurğu, obyekt və ərazilərdə, habelə, silah və müxtəlif hərbi texnikaların yanında foto və video çəkilişlər aparmaqla yanaşı, iş, vəzifə, ailə, xüsusən də hərbi sahəyə aid məlumatların müxtəlif sosial şəbəkələrdə paylaşılması və bununla da informasiya təhlükəsizliyinin pozulması, bəzən isə dövlət sirri təşkil edən hərbi məlumatların yayılması hallarına yol verilib.

Müxtəlif platformalarda hərbi qulluqçuların şəxsi və xidməti məlumatlarını, foto və video çəkilişlərini paylaşması halları, düşmən və digər xarici xüsusi xidmət orqanları tərəfindən bu şəxslərin Azərbaycan Ordusuna mənsub olduğunun müəyyən edilməsi və gizli əməkdaşlığa cəlb edilməsi üçün münbit şərait yaradır. Bu, yolverilməzdir.

Eyni zamanda, həmin hərbi qulluqçuların sosial şəbəkələrdə ünsiyyətdə olduğu insanlarla bölüşdükləri məlumatlardan istifadə etməklə qarşı tərəfin məlumat paylaşanların özlərinə qarşı müxtəlif məqsədlər üçün şantaj xarakterli addımların atılması və digər nüfuzdansalıcı təzyiqlərin ediləcəyi halları da qaçılmazdır. Yəni, bəziləri bilərəkdən, yaxud bilməyərəkdən, bəzən isə sadəlövhlükdən "səmimiyyətinə" inandıqları çirkin niyyətli insanların və qurumların toruna düşə bilərlər. Bu cür hadisələr öz səhvləri ucbatından əlacsız, çıxılmaz vəziyyətə salınan şəxsləri arzuolunmaz səmtə yönəldir, ümumilikdə isə ordumuzun işgüzar imicinə böyük xələl gətirir.

Bu kimi neqativ halların qarşısının alınması və mövcud problemlərin aradan qaldırılması məqsədilə Müdafiə Nazirliyi tərəfindən hərbi hissə və birləşmələrdə böyük işlər görülür, maarifləndirici tədbirlər keçirilir. Bu barədə də nazirlik tərəfindən ictimaiyyətə mütəmadi məlumatlar verilir, media vasitəsilə müraciətlər yayılır.

Müasir informasiya-kommunikasiya sistemlərinin geniş tətbiq edildiyi bir dövrdə, Ermənistan və digər ölkələrin xüsusi xidmət orqanlarının ixtiyarında olan Kiberkəşfiyyat və kiberhücum vasitələrinin davamlı inkişafını nəzərə alaraq, Müdafiə Nazirliyində bir çox qabaqlayıcı tədbirlər planlı şəkildə həyata keçirilir.

Ordumuza, eləcə də ölkəmizə qarşı düşmən tərəfindən kəşfiyyat-diversiya fəaliyyətinin aparılmasına hərbi qulluqçular tərəfindən bilməyərək və ya qəsdən, həmçinin ehtiyatsızlıq səbəbindən şərait yaradılmaması, gələcəkdə bu kimi hallara yol verilməməsi məqsədilə qanuna müvafiq addımlar atılır.

Qəbul edilmiş qərarlar, əmr və sərəncamlar əsasında təlimatlar hazırlanır və şəxsi heyətə çatdırılır. Düşmən toruna düşməməsi və açıq mənbələrdə xidməti məlumatların, dövlət sirri təşkil edən hərbi informasiyaların yayılmaması məqsədilə şəxsi heyətlə izahedici söhbətlər aparılır.

İnformasiya təhlükəsizliyi sahəsində qanunvericiliyin, Azərbaycan Respublikası müdafiə nazirinin və Azərbaycan Ordusunun Baş Qərargah rəisinin qərar və əmrlərinin tələblərinə ciddi riayət edilməsi, informasiya təhlükəsizliyinin pozulmasına şərait yaradan hallara yol verilməməsi məqsədi ilə nəzarət tədbirləri gücləndirilir, hərbi hissələrdə mütəmadi olaraq şəxsi heyətlə geniş maarifləndirmə tədbirləri təşkil edilir, "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin tələbləri hərbi qulluqçulara ətraflı izah edilir, dövlət sirri təşkil edən məlumatların yayılmasının cinayət tərkibli əməl olduğu diqqətə çatdırılır.

Qanunun tələblərinə riayət etməyənlər, səhlənkarlığa yol verənlər, əmrlərin tələblərini kobud şəkildə pozanlar barədə qanunvericiliyə uyğun təxirəsalınmaz, zəruri tədbirlər görülür. Fikrimcə, Müdafiə Nazirliyinin fəaliyyəti əyani surətdə göstərir ki, düzgün kommunikasiya siyasəti həyata keçirildikdə, hadisələrə operativ reaksiya verildikdə bir çox nöqsan və problemlərin aradan qaldırılmasına nail olmaq mümkündür.

Müasir dövrümüzün üzləşdiyi daha bir narahatedici məqam ordumuz və hərbi qulluqçularla bağlı təsdiqlənməmiş, dəqiqləşdirilməmiş məlumatların paylaşılmasıdır. Təəssüf doğuran odur ki, bu cür hallara təkcə ayrı-ayrı sosial şəbəkə istifadəçiləri deyil, hətta bəzi internet media portalları, elektron KİV-lər də yol verir. Diqqəti cəlb etmək, izləyici kütləsini genişləndirmək naminə dövlətimizin, ordumuzun maraqları təhlükə altına atılır, əsgər ailələri və ictimaiyyət narahatçılıq, nigarançılıq içində qalırlar. Bəziləri Müdafiə Nazirliyinin çoxsaylı müraciətlərinə məhəl qoymayaraq, bu cür məlumatların yayılmasını davam etməkdədir. Bəhs etdiyimiz mövzu həssas olmaqla yanaşı, peşəkar hərbi jurnalistika sahəsində kifayət qədər nöqsanların və çatışmazlıqların olduğunu da üzə çıxarır.

Müdafiə Nazirliyinin "Kommunikasiya Strategiyası" da məhz yuxarıda qeyd olunan vəzifələrin icrasını təmin etmək məqsədilə Nazirliyin prioritet fəaliyyət istiqamətlərinə informasiya dəstəyinin təmin edilməsinə xidmət edir.

"Kommunikasiya strategiyası" üzrə nazirlikdə işçi qrup yaradılmışdır. İşçi qrupun yaradılması nazirliyin strukturuna daxil olan qurumlar və digər dövlət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyətin operativliyinin təmin edilməsi, ictimailəşdirilməsi məqsədəuyğun hesab edilən məlumatların qarşılıqlı əlaqədə, operativ hazırlanması, razılaşdırılması və ictimaiyyətə çatdırılmasında vahid səs prinsipindən çıxış etmək zərurətindən irəli gəlir.

"Kommunikasiya Strategiyası"nın düzgün şəkildə həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Hesab edirik ki, Kommunikasiya strategiyasından irəli gələn vəzifələrin səmərəli icrası vətəndaş-dövlət-cəmiyyət münasibətlərinin inkişaf etdirilməsini, vətəndaş məmnunluğunun yüksəldilməsini, eyni zamanda, ordumuz haqqında düzgün ictimai informasiya fonunun yaradılmasını təmin edəcəkdir.

Kommunikasiya siyasətinə məsul rəhbər şəxsin rəhbərliyi altında işçi qrup tərəfindən bu strategiyanın uğurla və effektiv həyata keçirilməsi ölkəmizin maraqlarına xidmət edəcək, həmçinin dövlətimizin, eləcə də Azərbaycan Ordusunun daxili auditoriyada və beynəlxalq miqyasda nüfuzunun artmasına, işgüzar imicinin qorunmasına, ordumuz haqqında düzgün məlumatların dərc edilməsinə müsbət təsir göstərəcəkdir.

Müdafiə Nazirliyində artıq 10 ilə yaxındır ki, bu istiqamətdə fəaliyyətlər yerinə yetirilir. Nazirliyin rəsmi saytı, tvitter, instaqram, feysbuk kimi media paylaşım şəbəkələri, votsap, teleqram mesajlaşma mübadilə sistemləri uğurla fəaliyyət göstərir.

Müdafiə Nazirliyinin "Kommunikasiya Strategiyası" sosial media sahəsində işlərin təşkilini, həyata keçirilməsini, ictimaiyyətlə kommunikasiyanın yaradılmasını, nazirliyin daxili və digər dövlət qurumları ilə operativ əlaqələrinin qurulması, eləcə də ölkəmizdə müdafiə sahəsində həyata keçirilən tədbirlərin, ordumuzda aparılan islahatların, əldə edilən uğurların, tətbiq edilən yeniliklərin təbliğini təmin edən mühüm sənəddir.

"Kommunikasiya Strategiyası"ndan irəli gələn vəzifələrin icrasını, təbii ki, yaradılan işçi qrup həyata keçirir. Lakin müdafiə nazirinin 2021-ci il tarixli müvafiq qərarı bu işdə Nazirliyin bütün qurumlarının və səlahiyyətli şəxslərinin iştirakını da qarşıya vəzifə olaraq qoyur.

Müdafiə Nazirliyinin "Kommunikasiya Strategiyası"nın həyata keçirilməsi məqsədilə, hadisələrin düzgün qiymətləndirilməsi və operativliyin təmin olunması, struktur daxilindəki bölmələrarası informasiya mübadiləsinin təmin edilməsi məqsədilə işçi qrup onlayn rejimdə, 24/7 fəaliyyət göstərir. Günün istənilən vaxtında Nazirliyin Mətbuat Xidməti vasitəsi ilə hər hansı məlumatın, xəbərin doğru olub-olmamasını dəqiqləşdirmək mümkündür.

İşçi qrupun səmərəli fəaliyyətinin təmin edilməsi məqsədilə kommunikasiya sahəsində peşəkar kadrların hazırlanması və işçi qrup üzvlərinin mərhələli şəkildə müvafiq kurslara, seminarlara cəlb olunması, sertifikatlaşdırılması da təmin edilir. Bununla bağlı iş prosesində işçi qrup, eləcə də bu işə maraq göstərən və bu sahədə müəyyən təcrübəyə malik olan hərbi qulluqçuların irəli sürdüyü təkliflər də dəyərləndirilir və müvafiq qərarlar qəbul edilir.

"Kommunikasiya Strategiyası"na əsasən işçi qrupun effektiv fəaliyyət göstərməsini təmin etmək məqsədilə zəruri infrastruktur yaradılır, təkmilləşdirilir. İşçi qrupun müsbət fəaliyyət istiqamətlərindən biri də hesabatlar hazırlamaq, mütəmadi olaraq təhlillər apararaq "Kommunikasiya Strategiyası"nın həyata keçirilməsi prosesinin səmərəliliyini artırmaq məqsədilə yeni ideyalar irəli sürməkdir.

Dövlət və cəmiyyət üçün aktual mövzuların işıqlandırılması zamanı yeni yanaşmaların tətbiq edilməsi, köhnə təbliğat üsullarından imtina edilməsi və məlumatların cəmiyyət üçün cəlbedici formada çatdırılması da artıq zamanın tələbidir. Nazirliyin "Kommunikasiya Strategiyası" məhz bu istiqamətdə qarşıda duran vəzifələrin dəqiqləşdirilməsinə, görəcəyimiz işlərdə yeni forma və metodların tapılmasına, ortaya çıxarılmasına və tətbiqinə kömək edir.

Mətbuatdan izlədiyiniz və bildiyiniz kimi, son illər Müdafiə Nazirliyi media qurumları, ictimaiyyət nümayəndələri ilə qarşılıqlı fəaliyyətə böyük önəm verir, bu işə diqqət daim artırılır. Daxil olan müraciətlərə həssaslıqla yanaşılır və çəkilişlər aparmaq, süjetlər, sənədli filmlər və digər vizual materiallar hazırlamaq üçün lazım olan şərait yaradılır.

Cari əməkdaşlığın inkişaf perspektivləri, media-turların səmərəli təşkili və keçirilməsi, müxtəlif mövzuda brifinqlərin verilməsi, hərbi qulluqçulardan müxtəlif mövzularda müsahibələrin alınması, hərbi mövzuda filmlərin çəkilişləri, hərbi ekspertlər və bloqerlərlə işin təşkili, sosial medianın ictimaiyyətlə əlaqələrə təsiri, eləcə də hərbi və dövlət sirlərinin yayılmasına, vəzifəli şəxslərə - yüksək rütbəli zabitlərə hədəflənmiş qərəzli mövqelərə qarşı birgə mübarizənin aparılması, həmçinin mövcud boşluqların və nöqsanların aradan qaldırılması yolları da Nazirliyin "Kommunikasiya Strategiyası"nda öz əksini tapmışdır. İnanırıq ki, Nazirlik bütün sahələrdə olduğu kimi, bu sahədə də fəaliyyətini səmərəli qurmaqla gələcəkdə daha böyük uğurlar qazanacaqdır.

**İsa ELDAROĞLU**
**hərbi jurnalist,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Qoynuna dönürük, Şuşa, Cıdır düzü, Topxana...

*Şuşa! Yaradıldığı, bünövrəsi qoyulub tikildiyi gündən dillər əzbəri olan, şan-şöhrəti dünyaya yayılan, misli bərabəri olmayan gözəl şəhərimizin adını çəkəndə qulaqlarımıza dahi bəstəkarımız Üzeyir Hacıbəylinin bəstələdiyi bir-birindən gözəl musiqilərin səsi gəlir. Şuşa deyəndə yaddaşımızda Bülbülün bənzərsiz avazı, Cabbar Qaryağdıoğlunun, Xan Şuşinskinin zəngulələri ruhumuza sığal çəkir.*

Uzun illər idi ki, Qarabağın qızıl üzüyünün laciverd qaşı olan gözəl Şuşamızın adını dilimizə gətirəndə ürəyimizi kədər, gözlərimizi yaş, könlümüzü qatı duman bürüyürdü. İyirmi səkkiz ildən çox Şuşaya gedən yolları erməni qəsbkarları üzümüzə bağlamışdılar. İşğalda qalması kiçikdən-böyüyə hamımızı kədərləndirirdi. Çünki bizim səsimizi eşitmir, nəfəsimizi duymurdu doğma Şuşa. 1992-ci il mayın 8-dən doğma şəhərimizin həsrətini çəkə-çəkə qalmışdıq. Bu həsrətin, bu intizarın bitəcəyini həsrətlə gözləyirdik. Ötüb arxada qalan illərin bir günü bizə ay, il kimi gəlirdi. Vaxt keçmirdi, sanki zaman yorulub ayağını saxlayır, addımını atmırdı. Şuşasız qaldığımız günlərdə də biz bu qədim şəhərimizi unutmur, hər an onu xatırlayırdıq. Şuşanın gözəlliyini, bənzərsizliyini vəsf edən mahnılara qulaq asa-asa içdən-içə qisas hissi ilə alovlanırdıq.

Şuşa bizim and yerimiz, güman yerimiz idi. İllərdi insanlar Qarabağ, Şuşa nisgili ilə yaşayırdılar. Bu nisgilin, bu dərdin əhatə dairəsi genişləndikcə sanki Şuşa da təsəvvürümüzdə böyüyüb gözəlləşirdi.

Özlərini şəhərimizə sahib çıxmış kimi aparan erməni vandalları buradakı tarixi abidələrimizi dağıdıb yerlə-yeksan edirdilər. Bu yerlərin tarixini saxtalaşdırır, dini abidələrə müxtəlif donlar geydirib, formalar verib özününküləşdirməyə çalışırdılar.

Göylərə baş çəkən dağların əyninə biçilmiş yaşıl meşələri qırıb mebel materialları kimi xarici ölkələrə satırdılar.

Hər il Şuşanın işğal günlərini ürək ağrısı ilə, göz yaşı ilə qeyd edirdik. Tədbirlərdə şuşalı günlərimiz yaddaşımızda yenidən canlanır, ötən illərin xatirələri ard-arda sıralanıb dilə gəlirdi. Həsrət yüklü xatirələr birləşib qoşalaşaraq ömrün arxada qalan illərinə bağlanırdı. Xatirələr qanadlanıb ömrün yaşanıb arxada qalmış illərinə baş vururdu. Günlərin birində Şuşanın işğaldan azad edilməsini, həsrətə son qoyulmasını arzulayırdıq. O müqəddəs günü hamımız intizarla gözləyirdik. Uzun illər idi ki, ağıllarda saysız-hesabsız suallar dolaşırdı və bütün sualların da əvvəlində "nə vaxt" kəlməsi dayanırdı: "Nə vaxt Şuşanı azad edəcəyik, nə vaxt Şuşaya qayıdacağıq, nə vaxt düşməni Şuşadan qovacağıq?.." Ürəyində Vətən eşqi aşıb-daşan insanlar bu suala cavab axtarırdılar. İllər isə bu suallara məhəl qoymadan, əhəmiyyət vermədən ötüb keçirdi.




Bu həsrət dolu günlərdə yaxşı bilirdik ki, Şuşanı azad edəcək qüvvə Ali Baş Komandanın xüsusi diqqət və qayğısı ilə əhatələnmiş, gündən-günə gücünü, qüdrətini artıran Azərbaycan Ordusudur. Xalq ümidini getdikcə qüdrətlənən ordusuna, döyüş təcrübəsini artıran əsgərinə bağlamışdı. Ordumuz mütləq xalqın inamını doğrultmalı, düşməni torpaqlarımızdan qovmalı, günlərin birində Şuşa həsrətinə son qoymalıydı.

Qəhrəmanlıq tariximizə böyük hərflərlə yazılmış 2016-cı ilin Aprel döyüşləri ordumuzun güclü və qüdrətli, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olduğunu göstərdi. Həmin günlərdə böyük strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyi işğalçılardan azad edilmişdi. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakinləri doğma ocaqlarına qayıtmaq imkanı qazanmışdı. Cocuq Mərcanlıdan, Lələtəpədən başlanan döyüş yolu Şuşada tamamlanmalıydı. Yol yarımçıq qala bilməzdi. Tamamlandı da!

2020-ci il sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatlarında qüdrətli Azərbaycan Ordusunun zabit və əsgərləri döyüşlərdə böyük hünər və rəşadət göstərərək düşməni məğlubiyyətə uğratdılar, şəhər və kəndlərimizi qəsbkarlardan azad etdilər. Bu gün üçrəngli bayrağımız Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Ağdamda, Laçında, Kəlbəcərdə və Şuşada qürurla dalğalanır. Vətən müharibəsinin 42-ci günü eşitdiyimiz möhtəşəm xəbərdən ürəyimiz açıldı, könlümüz təlləndi, qəlbimiz şadlandı, gözlərimiz nəmləndi, baxışlarımızda sevinc elə parladı ki, sanki buludlar toqquşdu, ildırımlar çaxdı, göy guruldadı.

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev növbəti dəfə xalqa müraciət edərək bildirdi ki, müzəffər Azərbaycan Ordusu Qarabağın tacı, musiqi beşiyimiz olan qədim və doğma şəhərimizi, Şuşamızı erməni işğalçılarından azad edib.

Ali Baş Komandanın verdiyi şad xəbərin sevincini bir-biri ilə bölüşmək üçün xalq küçələrə axışdı. Hamı əlində bayraqlar küçə boyu addımladı, Ali Baş Komandanı, Azərbaycan Ordusunu böyük fərəhlə alqışladı. Alqışa, sevinc-sevincə qarışmışdı. İllərdən bəri bu xoş xəbəri gözləyən xalq sevinc içindəydi. Küçəyə çıxanların arasında bir əlində əsa, bir əlində bayrağımızı tutmuş bir qoca da, əyləşdiyi əlil arabasından Azərbaycanın və Türkiyənin bayraqlarını asmış orta yaşlı bir insan da, körpələr belə Şəhidlər xiyabanına tələsirdilər. Hamı bu sevincli anları onlara yaşatdığına görə Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanına, Azərbaycan Ordusuna minnətdarlıq edirdi.

Şanlı Azərbaycan Ordusunun zabit və əsgərləri əks-hücum əməliyyatlarında böyük hünər və qəhrəmanlıq göstərərək Şuşa şəhərini işğaldan azad etmişdilər. Başqa şəhər və rayonlarımız kimi, Şuşanın da işğalına son qoyulmuşdu. Nə böyük səadət, nə böyük hünər, nə böyük qələbə! Azərbaycan Ordusunun şəxsi heyəti qəhrəmanlıq və igidliyi ilə mümkünsüzü mümkün, əl çatmazı əl çatan etmişdi. Hərbçilərimiz uca dağları aşmış, şiş qayaları parçalamışdılar. Azərbaycan əsgəri rəşadəti və cəsarəti ilə xalqımızın qəhrəmanlıq tarixinə yeni səhifələr yazmışdı. Elə bir tarix ki, oxuduqca tamamlanmaz, yazdıqca bitməz. Uzun illərdən bəri Şuşanın başının üstündə dolaşan ağlı-qaralı buludlar dağıdılmış, səma qaraltılardan, bozartılardan təmizlənmiş, göy üzü xeyli gözəlləşmişdi. 1992-ci ildən bağlanmış qapılar bütün genişliyi ilə üzümüzə açılmışdı. Üçrəngli bayrağımız Şuşada da əzəmətlə dalğalanırdı.

Ali Baş Komandan xalqa müraciətində çox böyük qürurla və fəxrlə: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" - dedi. Bu gün bu gözəl şəhərdə yalnız və yalnız Azərbaycan əsgərinin addım səsləri eşidilir. Bir müddətdən sonra Şuşaya böyük qayıdış başlayacaq. Bütün bunları fikirləşdikcə iftixar və qürur dolu belə anlarda dilimdən və dodaqlarımdan asta-asta bu pıçıltılar qopur: "Qoynuna qayıdırıq, Şuşa! Gəlirik səni qoxulamağa, Xarı bülbül. Dönürük gözəlliyinə tamaşa etməyə, Topxana! Qayıdırıq suyundan içməyə, İsa bulağı! Gəlirik çöllərində at çapmağa, yarışlar, festivallar keçirməyə, Cıdır düzü!"

Bu günləri illərlə gözləmişdik, bu günləri aylarla arzulamışdıq, bu günlərin həsrətini həftələrlə çəkmişdik. Şükürlər ki, 28 ildən sonra arzumuza çatdıq, istəyimizə qovuşduq. Qarabağsız, Şuşasız günlərimizə son qoyuldu. Ömrümüzün təqviminə yeni səhifələr yazıldı. İndi sevinc içində Şuşalı, Qarabağlı günlər yaşayırıq. Ümid edirik ki, belə iftixar dolu günlərimizin ömrü əbədi-əzəli olacaq. Zabit və əsgərlərimizin Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə göstərdikləri igidlik və qəhrəmanlıq tariximizin səhifələrində daim qalacaq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Suriyanın şimalında daha bir təhlükəli terrorçu zərərsizləşdirilib



Suriyanın şimalında zərərsizləşdirilən iki PKK-YPG terroristindən biri daha təhlükəli terrorçular sırasında olub.

Anadolu Agentliyi xəbər verir ki, Türkiyə Silahlı Qüvvələrinin mövcud olduğu "Zeytun budağı" antiterror rayonunda zərərsizləşdirilən Fehmi Muhammed Afrin bölgəsində PKK-YPG terror qruplarını təşkilatlandıran şəxsdir.

## İsveçin Ukraynaya hərbi yardımı əvvəlkindən 50 faiz çox olacaq



İsveçin Ukrayna üçün ayırdığı növbəti hərbi yardım paketi əvvəlkindən 50 faiz çoxdur.

TASS informasiya agentliyi xəbər verir ki, bunu İsveçin müdafiə naziri Pol Conson Ukraynaya səfəri zamanı Odessada keçirdiyi mətbuat konfransında bəyan edib.

"Bir neçə həftə əvvəl hökumət Ukraynaya doqquzuncu dəstək paketini müəyyən etdi. Bu, səkkizinci ilə müqayisədə 50 faiz çoxdur. Bu paketdə hava hücumundan müdafiə sistemini, həmçinin digər hava hücumundan müdafiə növü üçün sursatları təqdim edirik. Əlbəttə ki, qısa hazırlıqla bağlı paket də var", - deyə İsveçin müdafiə naziri bildirib.

Pol Conson 2023-cü il yanvarın 1-dən İsveçin Avropa İttifaqında sədrliyə başlayacağını xatırladıb və vəd edib ki, Ukraynanın maraqlarının müdafiəsi Stokholm üçün vacib vəzifə olacaq.

Noyabrın ortalarında İsveç parlamenti hökumətin bu il Ukraynaya 3,0078 milyard kron (284 milyon dollardan çox) dəyərində hərbi texnika bağışlamaq təklifini dəstəkləyib.

## Əfqanıstanla sərhəddə atışma zamanı altı pakistanlı həlak olub



Əfqanıstanla sərhəddə baş verən atışma nəticəsində altı pakistanlı həlak olub, daha 17 nəfər yaralanıb.

Xarici KİV-lər xəbər verir ki, Pakistanın Əfqanıstan üzrə xüsusi nümayəndəsi Məhəmməd Sadiqin sözlərinə görə, insident ölkənin sərhədyanı bölgəsində yerləşən Çaman rayonunda qeydə alınıb.

"Taliban" hərəkatı isə öz növbəsində atışma zamanı bir nəfər Əfqanıstan vətəndaşının öldüyünü, 13 nəfərin, o cümlədən üç dinc sakinin xəsarət aldığını bildirib.

## Britaniya, İtaliya və Yaponiya yeni nəsil döyüş təyyarələrinin istehsalı ilə bağlı razılığa gəliblər



Britaniya, İtaliya və Yaponiya birlikdə yeni nəsil döyüş təyyarəsi istehsal edəcəklər.

Böyük Britaniyanın Baş naziri Rişi Sunak İtaliya və Yaponiya ilə 2035-ci ilə qədər süni intellektdən istifadə edərək, ağıl oxuyacaq yeni döyüş təyyarəsi istehsal etmək üçün razılaşdıqlarını açıqlayıb. Baş nazir bildirib ki, birgə müəssisə təhlükəsizlik sahəsində əməkdaşlığı yaxşılaşdıracaq.

Üç ölkə yeni nəsil döyüş təyyarəsinin 2030-cu illərin ortalarına qədər istifadəyə verilməsini hədəfləyir. Beləliklə, yeni tip döyüş təyyarəsi "Tayphoon" tipli döyüş təyyarələrini əvəz edəcək.

Artıq reaktivin hazırlanması üzrə işlərə başlanılıb. Təyyarə pilotsuz uça və hipersəs raketləri buraxa biləcək. Lakin belə təkmil döyüş təyyarəsinin hazırlanması kifayət qədər baha başa gələcək. Layihə iştirakçılarının sayı arta bilər.

**AZƏRTAC-ın materialları əsasında**

*Sıra hazırlığı*

# Nizam-intizamın təməli sırada qoyulur



"N" hərbi hissəsində sıra hazırlığı məşğələsini izlədik. Çavuş Samir Qəmbərli əsgərlərə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun olaraq silahsız sıra hərəkətlərini və yerişini, əsgəri salamlaşma qaydalarını, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borclarını, sıra hazırlığına olan tələbləri, yuxarı rəislərə yaxınlaşma, eləcə də digər fənn və elementləri öyrədirdi. Əsgərlərin hər biri verilən tapşırığı həvəslə və düzgün icra edirdi.

Hərbi xidmətdə sıra hazırlığının mahiyyəti danılmazdır. Çünki əsgərlərin bütün fəaliyyətləri sıra ilə tənzimlənir. Həmçinin əsgərlərə yüksək intizam aşılayan sıra hazırlığı döyüş hazırlığının ayrılmaz tərkib hissəsidir. Çavuş Samir Qəmbərli bildirdi ki, hərbi hissədə keçirilən bütün məşğələlər xidmətə gələn gənclərin yüksək döyüş hazırlıqlı əsgərlər kimi formalaşmasına xidmət edir. "Hərbi xidmətin bizə aşıladığı müsbət keyfiyyətlərdən ən başlıcası nizam-intizamdır. Hərbi xidmətə gələn gənc əsgərin nizam-intizamı sıradan başlayır. Sırada davranış qaydalarını yaxşı bilən əsgər verilən tapşırıqları da dəqiq və vaxtında yerinə yetirir. Biz çalışırıq ki, gənclərə ilk öncə sıranın müqəddəsliyini aşılayaq", - Samir Qəmbərli dedi.

Sıra, həqiqətən də, müqəddəsdir. Çünki vaxtilə bu sıralarda torpaqlarımızın azadlığı uğrunda canından keçən qəhrəman oğullarımız dayanıb. Öz igidlikləri ilə tarix yazan şəhidlərimiz də bu sıralardan çıxıb. Bu gün əminliklə deyə bilərəm ki, şəhidlərimizin qəhrəmanlıq yolunu özlərinə örnək bilən əsgərlərimiz sıranın müqəddəsliyini yaxşı dərk edirlər. Əsgərlərin sıra hazırlığı məşğələsində fəal iştirakı, sıranın fənn və elementlərini həvəslə öyrənməsi də buna bariz nümunədir.

Onların ayaq və əl hərəktlərindən yaranan səs dalğaları hərbi hissənin bütün ərazisinə yayılırdı. Eyni anda və nizamla yerinə yetirilən hərəkətlərdən yaranan ritmik səslər ətrafdakı hər kəsin diqqətini çəkirdi. Hər birinin şux qaməti, məğrur baxışı isə qalib ordunun rəşadətli əsgərləri olduqlarını bir daha sübut edirdi. Həm də onu göstərirdi ki, gənclərin hər birinin köksü Vətən sevgisi ilə doludur və hərbi xidmətdə olmaqdan qürur duyurlar.

Bütün komandaları cəld və nizamlı şəkildə icra edən əsgərlərlə söhbətləşdik. Əsgər Elmir Mirzəyev bildirdi ki, əsgəri xidmətin vacibliyini yaxşı dərk edərək, məsuliyyətlə xidmət edir. "Keçirilən bütün dərslərdə həvəslə iştirak edirik. Hər birimiz çalışırıq ki, nizamlı, bacarıqlı əsgərlər olaq, nümunəvi xidmətimizlə seçilək".

Əsgər Cavidan Abdurrahmanov isə yüksək əhval-ruhiyyədə xidmət etdiklərini dedi. "Bizə göstərilən diqqət və qayğıdan çox razıyıq. Məişət şəraitimiz, qida rasionumuz, geyimimiz yüksək səviyyədədir. Üzərimizə düşən nümunəvi əsgər olmaq, təlim və məşğələlərdə fəal iştirak etməkdir".

Əsgərlər Elmir Almazov, Elçin Quliyev, Mustafa Qurbanov, Qasım Tağıyev və digərləri də hərbi xidmət haqqında müsbət fikirlər səsləndirdilər. Rəşadətli Azərbaycan Ordusunun sıralarında dayanmağın sözlərlə ifadə olunmayacaq qədər qürurlu olduğunu bildirdilər. Hərbi xidmətdə bir çox müsbət keyfiyyətlər mənimsədiklərini və bu keyfiyyətlər içində ən əhəmiyyətlisinin nizam-intizam olduğunu qeyd etdilər. Əsgərlərin fikirləri bir daha təsdiq etdi ki, yüksək döyüş hazırlığı ilk öncə möhkəm nizam-intizamdan başlanır.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# İdman

## Yeniyetmə badmintonçumuz Estoniyada ikinci olub



Uşaq və yeniyetmə badmintonçularımız Estoniyanın Tartu şəhərində keçirilən "Yonex Estonian Youth International 2022" turnirində çıxışlarını başa vurublar.

Təmsilçilərimizdən ən yüksək nəticəyə Məhəmməd Hacızadə imza atıb. M.Hacızadə 11 yaşadək oğlanların şəxsi yarışında turnirin yarımfinalına kimi irəliləməyi bacarıb. Badmintonçumuz həm finala yüksəlmək, həm də 3-cü yer uğrunda keçirilən görüşlərdə eston rəqiblərinə uduzaraq dördüncü olub. Bu yaş kateqoriyası üzrə oğlanların qoşa yarışında isə qrup mərhələsində latviyalı Oskar Bajarsla birgə mübarizə aparan təmsilçimiz ikinci olub.

## Azərbaycan güləşçisi ABŞ-da bürünc medal qazanıb



Azərbaycanın sərbəst güləşçisi Osman Nurmaqomedov ABŞ-ın Ayova ştatının Koralvill şəhərində keçirilən dünya kuboku yarışında bürünc medala sahib olub.

Dünya yığmasının heyətində yer alan O.Nurmaqomedov (92 kq) B qrupunda yaponiyalı Satoşi Miuraya tam üstünlüklə qalib gəlib - 10:0. Təmsilçimiz iranlı Əmirhüseyn Bığlar Firuzpurbandpeyi isə (10:10) sonuncu xal prinsipinə əsasən məğlub edib. Yaponiyaya (9:1) qalib gəlib, İrana (4:6) uduzan dünya yığması B qrupunda ikinci yeri tutub və bürünc medal uğrunda Gürcüstanla qarşılaşıb. Dünya yığmasının 8:2 hesablı qələbəsində O.Nurmaqomedovun da payı olub. Belə ki, güləşçimiz Miriani Maysuradzeni 3:0 hesabı ilə üstələyib. Beləliklə, yığmamızın üzvü dünya kubokunda üçüncü olub.

Qadınların yarışında isə Jalə Əliyeva (57 kq) bəxtsizliklə üzləşib. Dünya yığmasının heyətində yer alan həmyerlimiz çinli Yonqxin Fenqlə görüşdə hesabda 6:3 öndə olarkən sağ ayağından ciddi zədə aldığı üçün yarışdan erkən çəkilmək məcburiyyətində qalıb.

## Bədii gimnastımız "Qış kuboku" yarışında ikinci olub



Azərbaycanın bədii gimnastı Alina Məmmədova Almaniyanın Leverkuzen şəhərində keçirilən dördüncü "Qış kuboku" yarışında gümüş medala sahib olub.

İdmançı topla hərəkətlərdə ikinci yeri tutub.

Qeyd edək ki, turnirdə Leyli Ağazadə və Fidan Aladinova da mübarizə aparır. "Qış kuboku" yarışı dekabrın 12-də başa çatacaq.

## Uşuçularımız İndoneziyadan iki medalla qayıdıblar



İndoneziyanın Tanqeranq şəhərində gənclər arasında uşu üzrə səkkizinci dünya çempionatında iki medal qazanıblar.

Taolu və sanda üzrə keçirilən çempionatda yeniyetmələrin yarışında Raul Səfərov (52 kq), gənclərin mübarizəsində isə Amin Əlili (56 kq) bürünc medal qazanıblar. Mundialda 63 ölkədən 900 -dən çox idmançı iştirak edib.

**AZƏRTAC-ın materialları əsasında**

*Maraq dünyamız*

# Yunanıstanın "Meteora" monastır kompleksi



Yunanıstanın Tessali şəhərində yerləşən "Meteora" monastır kompleksi Pravoslavlar üçün ən əhəmiyyətli yerlərdən biridir. Yunanıstanın isə ən böyük monastır kompleksidir. Hündürlüyü 600 metrdir. Ümumilikdə komplekse birbaşa qumdaşı sütunları üzərində tikilmiş iyirmi dörd monastır daxildir. Kompleksin yerləşdiyi sıldırım Pind qayalarının 20 milyon il əvvəl suyun çəkilməsi nəticəsində əmələ gəldiyi deyilir. Görünüşündən havada asılı olan dağlara bənzədiyinə görə "Meteora" yunancadan "Göylərdə dayanan" mənasındadır. "Meteora" YUNESKO tərəfindən mühafizə edilən tarixi monastırlardan biridir.

Kompleksin özəlliyi onun "alçatmaz" olmasıdır. Bütün monastırlar Pind dağ silsiləsinin üstündə yerləşir.

Buraya ayaq basan ilk xristianlar Meteorun kəşfini göylərdən bir işarə olaraq qəbul edirdilər. Belə bir tənha yerdə monastır tikmək insanın Allahla həqiqi bir əlaqə hiss etməsinə, ona yaxınlaşmasına imkan verə biləcəyinə inanırdılar.

Burada hökm sürən sükut və dini təqiblərdən qaçmaq istəyi Bizans İmperatorluğunun müxtəlif yerlərindən insanların (keşişlərin) bura sürətlə cəlb olunmasına kömək edir. Keşişlər burada kiçik mağaralarda və qayalı çökəkliklərdə məskunlaşırlar, yalnız xüsusi təyin olunmuş yerlərdə dini toplantılar etmək üçün bir araya gəlirdilər.

Dini ayinlərdə iştirak etmək üçün keşişlərin bir kilsəyə ehtiyacı var idi. Əvvəlcə yaxınlıqdakı Staqi şəhərindəki Arxanqel məbədini ziyarət etsələr də, öz kilsələrini tikməyə qərar verirlər.

Tədqiqatçıların araşdırmasına görə, burada məskunlaşan ilk keşişin adı Varnava olub. O, 950-ci ildə burada Müqəddəs Ruh adlanan ilk yaşayış sahəsini qurub. 70 ildən sonra digər yaşayış kompleksləri qurulmağa başlayıb və 1160-cı ildə monastır icmasının təşkilatlanmasının başlanğıcı sayılan Dupiani və ya Staqi yaşayış kompleksi ərsəyə gəlib. Kompleksin əsas monastırı Meqalo-Meteoro və ya Böyük Meteora 1388-ci ildə inşa edilib.

Varlaam monastırı orta əsrdə inşa edilən bazilika, incilər, fil sümüyü və əlyazmalar toplusu ilə bəzədilən heyrətamiz və məşhur monastırdır.

Meteoradakı Stefan monastırı ən zəngin və dünyəvi monastırlardan biridir. İndi kilsədə konsertlər, sərgilər təşkil olunur.

Monastırda zərgərlik muzeyi və dekorativ sənət əsərləri sərgisi də var.

Keçən əsrin əvvəllərindən Meteora monastırlarına giriş dini düşüncələrə görə deyil, ərazinin əlçatmaz olduğuna görə məhdud idi. Yalnız 1920-ci illərdə buraya yol çəkildi və qayaların üstü ilə daş pillələr inşa edilib. Əvvəllər rahiblər taxta pillələr sistemindən və ya yuxarıda yerləşən bloklar sistemi tərəfindən hərəkətə gətirilən adi torlardan istifadə edərək sütunlara qalxmalı olurdular. Belə bir dırmanma metodu isə uzun çəkirdi və tez-tez qəzalar baş verirdi.

**"Azərbaycan Ordusu"**

Kapitan Ağalarov Vüsal Abbas oğluna məxsus MN № 0044867 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Mahmudzadə Rəşad Səfər oğluna məxsus SQ № 0025429 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant İbrahim MƏMMƏDBƏYOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 1236 Nüsxə 4740 |